Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” sentyabr 2022-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 38

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ SIĞORTA FƏALİYYƏTİNƏ DAİR SİYASƏT VƏ NƏZARƏT DEPARTAMENTİ HAQQINDA

## Ə S A S N A M Ə

**BAKI- 2022**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Sığorta fəaliyyətinə dair siyasət və nəzarət departamenti (bundan sonra – Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanunlarını, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, Mərkəzi Bankın İdarə Heyətinin və daxili komitələrinin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi səlahiyyətləri daxilində sığorta sahəsində tənzimləmə və nəzarətin effektiv həyata keçirilməsi ilə sığorta bazarının sabitliyinin və dayanıqlığının təmin edilməsi, habelə sığorta bazarının iştirakçılarının hüquq və qanuni mənafelərinin qorunması üçün tədbirlərin həyata keçirilməsindən ibarətdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. sığorta bazarında tənzimləmə və nəzarət üzrə qabaqcıl beynəlxalq təcrübə və standartlara uyğun olaraq siyasətin formalaşdırılması üzrə təkliflərin verilməsi;

3.2. sığorta bazarını tənzimləyən normativ-metodoloji bazanın formalaşdırılması və mövcud bazanın təkmilləşdirilməsi üzrə normayaratma fəaliyyətinin həyata keçirilməsi;

3.3. sığorta bazarının peşəkar iştirakçılarının fəaliyyəti üzərində qanunvericiliyə uyğun olaraq nəzarətin həyata keçirilməsi;

3.4. sığorta sahəsində istehlakçıların hüquqlarının qorunması üçün müvafiq tədbirlərin görülməsi;

3.5. sığorta bazarında lisenziya, razılıq və icazələrin verilməsi, habelə onların məhdudlaşdırılması, dayandırılması və ləğv edilməsi ilə bağlı rəy və təkliflərin verilməsi;

3.6. sığorta bazarının inkişaf etdirilməsi və sığorta sisteminin təkmilləşdirilməsi, beynəlxalq standartların və təcrübənin sığorta bazarında tətbiqi üçün müvafiq tədbirlərin həyata keçirilməsi;

3.7. sığorta bazarının inkişaf strategiyasının formalaşdırılması və icrasının təmin edilməsi;

3.8. əhalinin sığorta sahəsi üzrə maarifləndirilməsinə dəstək verilməsi;

3.9. sığorta bazarının şəffaflığının təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi;

3.10. Departamentin strateji və əməliyyat planlarının, habelə büdcə layihəsinin hazırlanması, təsdiq olunmuş planların icrasının təmin edilməsi;

3.11. səlahiyyətləri çərçivəsində dövlət orqanları, sığorta ictimaiyyəti, xarici ölkələrin sığorta nəzarəti orqanları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi, rəhbərliyin tapşırığı ilə Mərkəzi Bankın təmsil edilməsi;

3.12. Departamentin funksiyalarına aid olan məsələlər üzrə müraciətlərə baxılması, sorğu və məktublara cavabların hazırlanması;

3.13. Departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakılardan ibarətdir:

4.1.1. Maliyyə dayanıqlığına nəzarət şöbəsi;

4.1.2. Bazar davranışlarına nəzarət şöbəsi;

4.1.3. Sığorta siyasəti və metodologiya şöbəsi;

4.1.4. Sığorta vasitəçilərinə nəzarət bölməsi.

4.2. Departamentə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini Maliyyə dayanıqlığına nəzarət şöbəsinin rəisi, o da işdə olmadıqda, rəhbərliyin müvafiq əmri ilə həvalə edilmiş digər şöbə rəislərindən biri həyata keçirir.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Maliyyə dayanıqlığına nəzarət şöbəsi:**

5.1.1. sığortaçılar və təkrarsığortaçılar tərəfindən təqdim edilən maliyyə hesabatları və fəaliyyətləri ilə bağlı sair hesabatları toplayır, təhlil edir və digər nəzarət məlumatları da nəzərə alınmaqla sığortaçıların və təkrarsığortaçıların qanunvericiliyin və

normativ xarakterli aktların tələblərinə riayət etməsinə nəzarət edir, nəticəsi üzrə müxtəlif hesabatlar hazırlayır və rəhbərliyə təqdim edir;

5.1.2. sığorta bazarında maliyyə sabitliyinin təmin edilməsi və risklərin ölçülməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada sığortaçılarda, təkrarsığortaçılarda və sığorta vasitəçilərində yoxlamalar aparır;

5.1.3. aparılmış yoxlama, habelə təhlil və qiymətləndirmələrin nəticələri əsasında sığortaçıların və təkrarsığortaçıların fəaliyyətində və sığorta bazarında risklərin azaldılmasına və maliyyə sabitliyinin təminatına istiqamətlənən fərdi və sistem xarakterli zəruri tədbirlər həyata keçirir, o cümlədən, aktuarilərə, sığortaçılara, təkrarsığortaçılara və onların rəhbər işçilərinə qarşı nəzarət tədbirlərinin tətbiqi ilə bağlı təkliflər verir;

5.1.4. təqdim edilən aktuar rəylərinin və təhlillərinin araşdırmasını aparır və sığorta tariflərinin sığorta riskinə uyğun olmasını yoxlayır;

5.1.5. sığortaçılara və təkrarsığortaçılara müvafiq lisenziyaların, razılıq və icazələrin verilməsi üçün daxil olmuş müraciət və könüllü sığorta qaydaları üzrə şirkətin maliyyə vəziyyətini, sığorta tariflərini və təqdim olunan riyazi əsaslandırmaları təhlil edərək aidiyyəti rəy verir;

5.1.6. nəzarət tədbirləri çərçivəsində sığortaçıların və təkrarsığortaçıların fəaliyyətində maliyyə dayanaqlığına təsir edən riskləri aşkar etdikdə onların lisenziyalarının qanunvericiliyə uyğun olaraq məhdudlaşdırılması, dayandırılması və ya ləğv edilməsi, habelə verilmiş icazələrin ləğv edilməsi ilə əlaqədar aidiyyəti üzrə təkliflər verir;

5.1.7. zərurət yarandıqda maliyyə hesabatlarının təhlil nəticələrini sığortaçılarla, təkrarsığortaçılarla və audit şirkətlərinin nümayəndələri ilə müzakirə edir;

5.1.8. sığortaçının və təkrarsığortaçının sığorta və təkrarsığorta müqavilələrinin müvafiq olaraq digər sığortaçıya və ya təkrarsığortaçıya ötürülməsi üzrə həmin sığorta müqavilələrini və tərəflərin maliyyə vəziyyətini təhlil edərək razılığın verilməsi məsələsinə baxır;

5.1.9. sığortaçıda və təkrarsığortaçıda təyin olunan müvəqqəti inzibatçının maliyyə sahəsi üzrə fəaliyyətinə nəzarət edir;

5.1.10. sığortaçı və təkrarsığortaçılarda maliyyə axınının yoxlanılması zamanı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hallar aşkar etdikdə bu barədə aidiyyəti struktur bölməyə məlumat verir;

5.1.11. zəruri hallarda, sığortaçıların və təkrarsığortaçıların maliyyə dayanıqlığına nəzarətin optimallaşdırılması baxımından təqdim olunan hesabatların təkmilləşdirilməsi ilə bağlı təkliflər verir;

5.1.12. zəruri hallarda, Departament direktorunun razılığı əsasında sığortaçının mövcud maliyyə vəziyyəti və inkişaf perspektivləri, qanunvericiliyə, habelə Mərkəzi Bankın normativ xarakterli aktlarının tələblərinə riayət edilməsi kontekstində sığortaçının rəhbər şəxsləri ilə görüşlər keçirir;

5.1.13. maliyyə sabitliyinin təmin edilməsi istiqamətində Sığorta Nəzarəti Sisteminin əməliyyat inzibatçılığını həyata keçirir və onun təkmilləşdirilməsi üzrə təkliflər verir;

5.1.14. maliyyə sabitliyinin təmin edilməsi istiqamətində İcbari Sığorta Bürosunun informasiya sisteminin qanunvericiliyə uyğun fəaliyyətinə nəzarət edir;

5.1.15. sığortaçıların və təkrarsığortaçıların maliyyə dayanıqlığının qiymətləndirilməsi sahəsində beynəlxalq təcrübəni təhlil edir və müvafiq təkliflər verir;

5.1.16. Departamentin strateji və əməliyyat planlarının hazırlanmasında iştirak edir;

5.1.17. şöbəyə aid olan məsələlər barədə müraciətlərə baxır, sorğu və məktublara cavab hazırlayır;

5.1.18. Departament rəhbərliyinin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Bazar davranışlarına nəzarət şöbəsi:**

5.2.1. sığorta bazarının peşəkar iştrakçıları tərəfindən sığorta müqavilələrinin bağlanması, öhdəliklərin vaxtında, tam və ədalətli icra edilməsi, müştəri, sığortalı, sığorta olunan və faydalanan şəxslə ədalətli rəftar olunması, onlara sığorta məhsulları barədə məlumatların tam və düzgün təqdim edilməsi, habelə maraqların toqquşmasının qarşısının alınması (bundan sonra - bazar davranışı) istiqamətində sığorta qanunvericiliyinin tələblərinin icra edilməsinə nəzarət edir;

5.2.2. bazar davranışları çərçivəsində sığorta bazarının peşəkar iştirakçıları tərəfindən sığorta qanunvericiliyinin tələblərinə riayət edilməsinə və istehlakçıların hüquqlarının qorunmasına nəzarət edir;

5.2.3. sığortaçılarda və təkrarsığortaçıda korporativ idarəetmə ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət edir;

5.2.4. əhalinin sığorta sahəsi üzrə maarifləndirilməsinə dəstək verir və sığorta xidmətlərinin əlçatanlığının təmin olunmasına nəzarət edir;

5.2.5. sığortaçıların elektron informasiya sistemləri ilə bağlı sığorta qanunvericiliyinin tələblərinə riayət olunmasına və təbliğat işlərinə (reklam və təşviqat) nəzarət edir;

5.2.6. icbari sığorta növlərini həyata keçirən sığortaçıların qanunvericliyin tələblərinə uyğun olaraq filial və ya nümayəndəliklərinin mövcudluğuna nəzarət edir;

5.2.7. bazar davranışları çərçivəsində qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada sığortaçılarda, təkrarsığortaçılarda və sığorta vasitəçilərində yoxlamalar aparır;

5.2.8. sığortaçıların bazar davranışı üzrə sığorta qanunvericiliyin tələblərinin pozulmasına görə qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsi üzrə təklif verir və müvafiq tədbirlərin icrasına nəzarət edir;

5.2.9. bazar davranışlarının təhlili çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hallar aşkar etdikdə bu barədə aidiyyəti struktur bölməyə məlumat verir;

5.2.10. İcbari Sığorta Bürosunun informasiya sisteminin bazar davranışları üzrə qanunvericiliyə uyğun fəaliyyətinə nəzarət edir;

5.2.11. Sığorta Nəzarəti Sisteminin əməliyyat inzibatçılığını həyata keçirir, sığortaçı və təkrarsığortaçıların bazar davranışlarının qanunauyğunluğunun təmin edilməsi istiqamətində təkliflər verir;

5.2.12. sığorta bazarının peşəkar iştirakçıları tərəfindən daxil olan bazar davranışlarına uyğun aidiyyəti sorğuları cavablandırır;

5.2.13. sığortaçılara və təkrarsığortaçılara müvafiq lisenziyaların, razılıq və icazələrin verilməsi üçün daxil olmuş müraciətlərin həmin sığortaçı və ümumilikdə sektor üzrə bazar davranışlarına uyğunluğunu təhlil edərək aidiyyəti rəy verir;

5.2.14. sığortaçıların hazırladığı sığorta qaydalarına bazar davranışlarının təhlili çərçivəsində baxır və sığorta tariflərinə verilmiş rəy nəzərə alınmaqla aidiyyəti könüllü sığorta növünün aparılmasına icazə verilməsi ilə bağlı tədbirlər görür;

5.2.15. sığortaçı və təkrarsığortaçıların fəaliyyəti zamanı bazar davranışları istiqamətində pozuntu aşkar edildikdə verilmiş lisenziya və icazələrin qanunvericiliyə uyğun olaraq məhdudlaşdırılması, dayandırılması və ya ləğv edilməsi ilə əlaqədar rəy və təkliflər verir;

5.2.16. sığortaçının və təkrarsığortaçının sığorta və təkrarsığorta müqavilələrinin müvafiq olaraq digər sığortaçıya və ya təkrarsığortaçıya ötürülməsinə tərəflərin bazar davranışlarını təhlil edərək razılığın verilməsi məsələsinə baxır;

5.2.17. sığortaçıda və təkrarsığortaçıda təyin olunan müvəqqəti inzibatçının fəaliyyətinə bazar davranışı üzrə nəzarət edir;

5.2.18. aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin sığortalanması üzrə təqdim edilmiş sənədlərə baxır;

5.2.19. zəruri hallarda Departament direktorunun razılığı əsasında sığortaçının bazar davranışı istiqamətində qanunvericiliyə, habelə Mərkəzi Bankın normativ xarakterli aktlarının tələblərinə riayət edilməsi kontekstində sığortaçının rəhbər şəxsləri ilə görüşlər keçirir;

5.2.20. sığortaçıların bazar davranışları istiqamətində qanunvericiliyin tələblərinin icrası üzrə nəzarətin optimallaşdırılması baxımından qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verir;

5.2.21. sığortaçıların bazar davranışlarına nəzarətin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübəni təhlil edir və müvafiq təkliflər verir;

5.2.22. bu Əsasnamənin 5.1.16-5.1.18-ci yarımbəndlərində müəyyən edilmiş vəzifələri yerinə yetirir.

**5.3. Sığorta siyasəti və metodologiya şöbəsi**

5.3.1. sığorta bazarında tənzimləmə və nəzarət üzrə müəyyən edilmiş strateji hədəflərə əsaslanaraq tənzimləmə və nəzarət siyasətinin formalaşdırılması üzrə təkliflər hazırlayır;

5.3.2. sığorta bazarının peşəkar iştirakçılarının fəaliyyətinin tənzimlənməsi və nəzarətinə dair normativ-metodoloji bazanın formalaşdırılması və mövcud bazanın təkmilləşdirilməsi üzrə normayaratma fəaliyyətini həyata keçirir;

5.3.3. sığorta bazarını tənzimləyən qanunvericilik aktlarının hazırlanmasında iştirak edir;

5.3.4. sığorta bazarının tənzimlənməsi üzrə beynəlxalq təcrübədə istifadə olunan nəzəri və təcrübi məsələləri öyrənir, alternativ tənzimləmə alətlərinin tətbiqi üzrə təkliflər hazırlayır;

5.3.5. sığorta bazarının infrastrukturunun təkmilləşdirilməsi və səmərəliyinin artırılması üzrə təkliflər verir;

5.3.6. sığorta bazarında yeni alətlərin formalaşdırılması, proses və prosedurların optimallaşdırılması üzrə təkliflər verir;

5.3.7. sığorta bazarının inkişaf strategiyasının formalaşdırılması üzrə təkliflər verir;

5.3.8. sığorta bazarının inkişafının dəstəklənməsi və təbliğində iştirak edir;

5.3.9. Departamentə daxil olan sənədlər, elmi tədqiqatlar üzrə təhlil aparır və onlara dair rəy və təkliflər hazırlayır;

5.3.10. sığorta sektoru üzrə normativ-metodoloji sənədlərin tətbiq edilməsi ilə əlaqədar nəzarət subyektlərinə metodoloji dəstək göstərir;

5.3.11. səlahiyyətinə aid olan məsələlər üzrə xarici ölkələrlə və beynəlxalq təşkilatlarla faydalı əməkdaşlığa dair sənədlərin hazırlanmasında iştirak edir;

5.3.12. zəruri hallarda Departament direktorunun razılığı əsasında səlahiyyətlərinə aid olan məsələlər üzrə sığorta bazarının iştirakçılarını dəvət etməklə təlimlər, iclaslar və müşavirələr keçirir;

5.3.13. bu Əsasnamənin 5.1.16-5.1.18-ci yarımbəndlərində müəyyən edilmiş vəzifələri yerinə yetirir.

**5.4. Sığorta vasitəçilərinə nəzarət bölməsi**

5.4.1. sığorta vasitəçilərinin fəaliyyətləri ilə bağlı hesabatları toplayır, təhlil edir və digər nəzarət məlumatları da nəzərə alınmaqla sığorta vasitəçilərinin qanunvericiliyin və normativ xarakterli aktların tələblərinə riayət etməsinə nəzarət edir, nəticəsi üzrə müxtəlif hesabatlar hazırlayır və rəhbərliyə təqdim edir;

5.4.2. sığorta vasitəçilərinin fəaliyyətinə nəzarət çərçivəsində qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada sığortaçılarda, təkrarsığortaçılarda və sığorta vasitəçilərində yoxlamalar aparır;

5.4.3. aparılmış yoxlama, habelə təhlil və qiymətləndirmələrin nəticələri əsasında sığorta vasitəçilərinin fəaliyyətində aşkarlanan nöqsanların aradan qaldırılması istiqamətində zəruri tədbirlər həyata keçirir, o cümlədən, sığorta vasitəçilərinə qarşı nəzarət tədbirlərinin tətbiqi ilə bağlı təkliflər verir;

5.4.4. sığorta vasitəçilərinin inkişafı istiqamətində beynəlxalq təcrübəni təhlil edir və müvafiq təkliflər verir;

5.4.5. sığorta vasitəçilərinə lisenziyaların verilməsi üçün müraciətlərə dair rəy bildirir;

5.4.6. sığorta vasitəçilərinin lisenziyalarının qanunvericiliyə uyğun olaraq dayandırılması və ləğv edilməsi ilə əlaqədar təkliflər verir;

5.4.7. zərurət yarandıqda hesabatların təhlil nəticələrini sığorta vasitəçilərinin nümayəndələri ilə müzakirə edir;

5.4.8. sığorta vasitəçilərinin fəaliyyətinin təhlili zamanı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hallar aşkar etdikdə bu barədə aidiyyəti struktur bölməyə məlumat verir;

5.4.9. sığorta vasitəçilərində korporativ idarəetmə ilə bağlı qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət edir;

5.4.10. sığorta vasitəçiləri tərəfindən daxil olan sorğuları aidiyyəti üzrə cavablandırır;

5.4.11. zəruri hallarda, sığorta vasitəçilərinə nəzarətin optimallaşdırılması baxımından qanunvericiliyin və təqdim olunan hesabatların təkmilləşdirilməsi ilə bağlı təkliflər verir;

5.4.12. sığorta vasitəçilərinin fəaliyyətinə nəzarətin təmin edilməsi çərçivəsində Sığorta Nəzarəti Sisteminin əməliyyat inzibatçılığını həyata keçirir və onun təkmilləşdirilməsi üzrə təkliflər verir;

5.4.13. sığorta vasitəçilərinin fəaliyyətinə nəzarətin təmin edilməsi çərçivəsində İcbari Sığorta Bürosunun informasiya sisteminin qanunvericiliyə uyğun fəaliyyətinə nəzarət edir;

5.4.14. bu Əsasnamənin 5.1.16-5.1.18-ci yarımbəndlərində müəyyən edilmiş vəzifələri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏALAR

6.1. Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

6.2. Bu Əsasnamə qüvvəyə mindiyi gündən Mərkəzi Bankın İdarə Heyətinin 23 oktyabr 2020-ci il tarixli qərarı (Protokol №48) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının Sığorta fəaliyyətinə nəzarət departamenti haqqında Əsasnamə" ləğv edilir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**